AZƏRBAYCAN RESPUBLİKASININ
MƏRKƏZİ SEÇKİ KOMİSSİYASI

# R E F E R E N D U M

## 26 sentyabr 2016-cı il

✧ ✧ ✧

**“Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının Referendum Aktının layihəsinə uyğun olaraq Azərbaycan Respublikası Konstitusiyasının ümumxalq səsverməsinə çıxarılan hissələrinin**

# müqayisəli təqdimatı

BAKI – 2016

| TƏKLİF EDİLƏN VARİANT | MÖVCUD VARİANT |
|---|---|

## 1

**TƏKLİF EDİLƏN VARİANT**

**Maddə 9. Silahlı Qüvvələr**

I. Azərbaycan Respublikası öz təhlükəsizliyini və müdafiəsini təmin etmək məqsədi ilə Silahlı Qüvvələr ~~və başqa silahlı birləşmələr~~ yaradır. *Silahlı Qüvvələr Azərbaycan Ordusundan və başqa silahlı birləşmələrdən ibarətdir.*

. . .

**MÖVCUD VARİANT**

**Maddə 9. Silahlı Qüvvələr**

I. Azərbaycan Respublikası öz təhlükəsizliyini və müdafiəsini təmin etmək məqsədi ilə Silahlı Qüvvələr və başqa silahlı birləşmələr yaradır.

. . .

## 2

**TƏKLİF EDİLƏN VARİANT**

**Maddə 24. İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının əsas prinsipi**

*I. İnsan ləyaqəti qorunur və ona hörmət edilir.*

~~I.~~ *II.* Hər kəsin doğulduğu andan toxunulmaz, pozulmaz və ayrılmaz hüquqları və azadlıqları vardır.

~~II.~~ *III.* Hüquqlar və azadlıqlar hər kəsin cəmiyyət və başqa şəxslər qarşısında məsuliyyətini və vəzifələrini də əhatə edir. *Hüquqlardan sui-istifadəyə yol verilmir.*

**MÖVCUD VARİANT**

**Maddə 24. İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının əsas prinsipi**

I. Hər kəsin doğulduğu andan toxunulmaz, pozulmaz və ayrılmaz hüquqları və azadlıqları vardır.

II. Hüquqlar və azadlıqlar hər kəsin cəmiyyət və başqa şəxslər qarşısında məsuliyyətini və vəzifələrini də əhatə edir.

## 3

**TƏKLİF EDİLƏN VARİANT**

**Maddə 25. Bərabərlik hüququ**

. . .

III. Dövlət, irqindən, ~~milliyyətindən~~ *etnik mənsubiyyətindən*, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq, hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir. İnsan və vətəndaş hüquqlarını və azadlıqlarını irqi, ~~milli~~ *etnik*, dini, dil, cinsi, mənşəyi, əqidə, siyasi və sosial mənsubiyyətə görə məhdudlaşdırmaq qadağandır.

. . .

*VI. Sağlamlıq imkanları məhdud olanlar, onların məhdud imkanlarına görə həyata keçirilməsi çətinləşən hüquq və vəzifələrdən başqa, bu Konstitusiyada təsbit olunmuş bütün hüquqlardan istifadə edir və vəzifələri daşıyırlar.*

**MÖVCUD VARİANT**

**Maddə 25. Bərabərlik hüququ**

. . .

III. Dövlət, irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq, hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir. İnsan və vətəndaş hüquqlarını və azadlıqlarını irqi, milli, dini, dil, cinsi, mənşəyi, əqidə, siyasi və sosial mənsubiyyətə görə məhdudlaşdırmaq qadağandır.

## TƏKLİF EDİLƏN VARİANT

## MÖVCUD VARİANT

**4**

**Maddə 29. Mülkiyyət hüququ**

. . .

*V. Xüsusi mülkiyyət sosial öhdəliklərə səbəb olur.*

*VI. Sosial ədalət və torpaqlardan səmərəli istifadə məqsədi ilə torpaq üzərində mülkiyyət hüququ qanunla məhdudlaşdırıla bilər.*

~~V.~~ *VII.* Dövlət vərəsəlik hüququna təminat verir.

**Maddə 29. Mülkiyyət hüququ**

I. Hər kəsin mülkiyyət hüququ vardır.

II. Mülkiyyətin heç bir növünə üstünlük verilmir. Mülkiyyət hüququ, o cümlədən xüsusi mülkiyyət hüququ qanunla qorunur.

III. Hər kəsin mülkiyyətində daşınar və daşınmaz əmlak ola bilər. Mülkiyyət hüququ mülkiyyətçinin təkbaşına və ya başqaları ilə birlikdə əmlaka sahib olmaq, əmlakdan istifadə etmək və onun barəsində sərəncam vermək hüquqlarından ibarətdir.

IV. Heç kəs məhkəmənin qərarı olmadan mülkiyyətindən məhrum edilə bilməz. Əmlakın tam müsadirəsinə yol verilmir. Dövlət ehtiyacları üçün mülkiyyətin özgəninkiləşdirilməsinə yalnız qabaqcadan onun dəyərini ədalətli ödəmək şərti ilə yol verilə bilər.

V. Dövlət vərəsəlik hüququna təminat verir.

**5**

**Maddə 32. Şəxsi toxunulmazlıq hüququ**

. . .

**Maddə 32. Şəxsi toxunulmazlıq hüququ**

I. Hər kəsin şəxsi toxunulmazlıq hüququ vardır.

II. Hər kəsin şəxsi və ailə həyatının sirrini saxlamaq hüququ vardır. Qanunla nəzərdə tutulan hallardan başqa, şəxsi və ailə həyatına müdaxilə etmək qadağandır. Hər kəsin şəxsi və ailə həyatına qanunsuz müdaxilədən müdafiə hüququ vardır.

III. Öz razılığı olmadan kimsənin şəxsi həyatı haqqında məlumatın toplanılmasına, saxlanılmasına, istifadəsinə və yayılmasına yol verilmir. Qanunla müəyyən edilmiş hallar

## TƏKLİF EDİLƏN VARİANT

## MÖVCUD VARİANT

istisna olmaqla, heç kəs onun xəbəri olmadan və ya etirazına baxmadan izlənilə bilməz, video və foto çəkilişinə, səs yazısına və digər bu cür hərəkətlərə məruz qoyula bilməz.

IV. Hər kəsin yazışma, telefon danışıqları, poçt, teleqraf və digər rabitə vasitələri ilə ötürülən məlumatın sirrini saxlamaq hüququna dövlət təminat verir. Bu hüquq qanunla nəzərdə tutulmuş qaydada cinayətin qarşısını almaqdan və ya cinayət işinin istintaqı zamanı həqiqəti üzə çıxarmaqdan ötrü məhdudlaşdırıla bilər.

V. Qanunla müəyyən edilmiş hallar istisna olmaqla, hər kəs onun haqqında toplanmış məlumatlarla tanış ola bilər. Hər kəsin onun barəsində toplanmış və həqiqətə uyğun olmayan, tam olmayan, habelə qanunun tələbləri pozulmaqla əldə edilmiş məlumatların düzəldilməsini və ya çıxarılmasını (ləğv edilməsini) tələb etmək hüququ vardır.

*VI. Qanunla müəyyən edilmiş hallar istisna olmaqla, üçüncü şəxslər haqqında məlumat almaq məqsədi ilə elektron formada və ya kağız üzərində aparılan informasiya ehtiyatlarına daxil olmaq qadağandır.*

*VII. Məlumatın aid olduğu şəxsin buna razılığını aşkar ifadə etdiyi hallar, ayrı-seçkiliyə yol verməmək şərtilə anonim xarakterli statistik məlumatların emalı və qanunun yol verdiyi digər hallar istisna olmaqla, informasiya texnologiyalarından şəxsi həyata, o cümlədən əqidəyə, dini və etnik mənsubiyyətə dair məlumatların açıqlanması üçün istifadə edilə bilməz.*

*VIII. Fərdi məlumatların dairəsi, habelə onların emalı, toplanması, ötürülməsi, istifadəsi və mühafizəsi şərtləri qanunla müəyyən edilir.*

| TƏKLİF EDİLƏN VARİANT | MÖVCUD VARİANT |
| --- | --- |
| **6** | |
| **Maddə 36. Tətil hüququ**<br>. . .<br>II. Əmək müqaviləsi əsasında işləyənlərin tətil etmək hüququ yalnız qanunla nəzərdə tutulmuş hallarda məhdudlaşdırıla bilər. Azərbaycan Respublikasının Silahlı Qüvvələrində ~~və digər silahlı birləşmələrdə~~ xidmət edən hərbi qulluqçular və mülki şəxslər tətil edə bilməzlər.<br>. . .<br>*IV. Qanunla müəyyən edilmiş hallar istisna olmaqla, lokaut qadağandır.* | **Maddə 36. Tətil hüququ**<br>. . .<br>II. Əmək müqaviləsi əsasında işləyənlərin tətil etmək hüququ yalnız qanunla nəzərdə tutulmuş hallarda məhdudlaşdırıla bilər. Azərbaycan Respublikasının Silahlı Qüvvələrində və digər silahlı birləşmələrdə xidmət edən hərbi qulluqçular və mülki şəxslər tətil edə bilməzlər.<br>. . . |
| **7** | |
| **Maddə 47. Fikir və söz azadlığı**<br>. . .<br>III. İrqi, milli, dini, sosial *və hər hansı digər meyara əsaslanan* ədavət və düşmənçilik oyadan təşviqata və təbliğata yol verilmir. | **Maddə 47. Fikir və söz azadlığı**<br>. . .<br>III. İrqi, milli, dini, sosial ədavət və düşmənçilik oyadan təşviqata və təbliğata yol verilmir. |
| **8** | |
| **Maddə 49. Sərbəst toplaşmaq azadlığı**<br>. . .<br>II. Hər kəsin başqaları ilə birlikdə müvafiq dövlət orqanlarını qabaqcadan xəbərdar etməklə*, ictimai qaydanı və ya ictimai əxlaqı pozmamaq şərtilə,* dinc, silahsız yığışmaq, yığıncaqlar, mitinqlər, nümayişlər, küçə yürüşləri keçirmək, piketlər düzəltmək hüququ vardır. | **Maddə 49. Sərbəst toplaşmaq azadlığı**<br>. . .<br>II. Hər kəsin başqaları ilə birlikdə müvafiq dövlət orqanlarını qabaqcadan xəbərdar etməklə dinc, silahsız yığışmaq, yığıncaqlar, mitinqlər, nümayişlər, küçə yürüşləri keçirmək, piketlər düzəltmək hüququ vardır. |

| TƏKLİF EDİLƏN VARİANT | MÖVCUD VARİANT |
|---|---|
| **9** | |
| **Maddə 53. Vətəndaşlıq hüququnun təminatı**<br><br>I. Azərbaycan Respublikasının vətəndaşı ~~heç bir halda~~ Azərbaycan Respublikası vətəndaşlığından *(onun qanunla müəyyən edilmiş itirilmə halları istisna olmaqla)* məhrum edilə bilməz.<br><br>. . . | **Maddə 53. Vətəndaşlıq hüququnun təminatı**<br><br>I. Azərbaycan Respublikasının vətəndaşı heç bir halda Azərbaycan Respublikası vətəndaşlığından məhrum edilə bilməz.<br><br>. . . |
| **10** | |
| **Maddə 56. Seçki hüququ**<br><br>. . .<br><br>III. Hərbi qulluqçuların, hakimlərin, dövlət məmurlarının, din xadimlərinin, məhkəmənin qanuni qüvvəyə minmiş hökmü ilə azadlıqdan məhrum edilmiş şəxslərin, bu Konstitusiyada və qanunda nəzərdə tutulan digər şəxslərin ~~seçkilərdə iştirak etmək~~ *seçilmək* hüququ qanunla məhdudlaşdırıla bilər. | **Maddə 56. Seçki hüququ**<br><br>. . .<br><br>III. Hərbi qulluqçuların, hakimlərin, dövlət məmurlarının, din xadimlərinin, məhkəmənin qanuni qüvvəyə minmiş hökmü ilə azadlıqdan məhrum edilmiş şəxslərin, bu Konstitusiyada və qanunda nəzərdə tutulan digər şəxslərin seçkilərdə iştirak etmək hüququ qanunla məhdudlaşdırıla bilər. |
| **11** | |
| **Maddə 57. Müraciət etmək hüququ**<br><br>I. Azərbaycan Respublikası vətəndaşlarının dövlət orqanlarına şəxsən müraciət etmək, habelə fərdi və kollektiv yazılı müraciətlər göndərmək hüququ vardır. *Hərbi qulluqçular bu hüquqdan yalnız fərdi qaydada istifadə edə bilərlər.* Hər bir müraciətə qanunla müəyyən edilmiş qaydada və müddətlərdə yazılı cavab verilməlidir.<br><br>. . . | **Maddə 57. Müraciət etmək hüququ**<br><br>I. Azərbaycan Respublikası vətəndaşlarının dövlət orqanlarına şəxsən müraciət etmək, habelə fərdi və kollektiv yazılı müraciətlər göndərmək hüququ vardır. Hər bir müraciətə qanunla müəyyən edilmiş qaydada və müddətlərdə yazılı cavab verilməlidir.<br><br>. . . |

| TƏKLİF EDİLƏN VARİANT | MÖVCUD VARİANT |
| --- | --- |

**12**

**Maddə 58. Birləşmək hüququu**

. . .

IV. Azərbaycan Respublikasının bütün ərazisində və ya hər hansı hissəsində qanuni dövlət hakimiyyətini zorla devirmək məqsədi*, cinayət hesab edilən digər məqsədlər* güdən *və ya cinayətkar üsullardan istifadə edən* birliklər qadağandır. Konstitusiyanı və qanunları pozan birliklərin fəaliyyətinə yalnız məhkəmə qaydasında xitam verilə bilər.

**Maddə 58. Birləşmək hüququ**

. . .

IV. Azərbaycan Respublikasının bütün ərazisində və ya hər hansı hissəsində qanuni dövlət hakimiyyətini zorla devirmək məqsədi güdən birliklər qadağandır. Konstitusiyanı və qanunları pozan birliklərin fəaliyyətinə yalnız məhkəmə qaydasında xitam verilə bilər.

**13**

**Maddə 59. Azad sahibkarlıq hüququ**

*I.* Hər kəs ~~qanunla nəzərdə tutulmuş qaydada~~ öz imkanlarından, qabiliyyətindən və əmlakından sərbəst istifadə edərək təkbaşına və ya başqaları ilə birlikdə azad sahibkarlıq fəaliyyəti və ya qanunla qadağan edilməmiş digər iqtisadi fəaliyyət növü ilə məşğul ola bilər.

*II. Dövlət sahibkarlıq sahəsində yalnız dövlət maraqlarının, insan həyatının və sağlamlığının müdafiəsi ilə bağlı tənzimləməni həyata keçirir.*

**Maddə 59. Azad sahibkarlıq hüququ**

Hər kəs qanunla nəzərdə tutulmuş qaydada öz imkanlarından, qabiliyyətindən və əmlakından sərbəst istifadə edərək təkbaşına və ya başqaları ilə birlikdə azad sahibkarlıq fəaliyyəti və ya qanunla qadağan edilməmiş digər iqtisadi fəaliyyət növü ilə məşğul ola bilər.

**14**

**Maddə 60. Hüquq və azadlıqların *inzibati və* məhkəmə təminatı**

I. Hər kəsin hüquq və azadlıqlarının *inzibati qaydada və* məhkəmədə müdafiəsinə təminat verilir.

*II. Hər kəsin hüququ var ki, onun işinə qərəzsiz yanaşılsın və həmin işə inzibati icraat və məhkəmə prosesində ağlabatan müddətdə baxılsın.*

**Maddə 60. Hüquq və azadlıqların məhkəmə təminatı**

I. Hər kəsin hüquq və azadlıqlarının məhkəmədə müdafiəsinə təminat verilir.

II. Hər kəs dövlət orqanlarının, siyasi partiyaların, həmkarlar ittifaqlarının və digər ictimai birliklərin, vəzifəli şəxslərin qərar və hərəkətlərindən (yaxud hərəkətsizliyindən)

## TƏKLİF EDİLƏN VARİANT

*III. Hər kəsin inzibati icraat və məhkəmə prosesində dinlənilmək hüququ vardır.*

*IV. Hər kəs dövlət orqanlarının, siyasi partiyaların, hüquqi şəxslərin, bələdiyyələrin və vəzifəli şəxslərin hərəkətlərindən və hərəkətsizliyindən inzibati qaydada və məhkəməyə şikayət edə bilər.*

## MÖVCUD VARİANT

məhkəməyə şikayət edə bilər.

---

**15**

## TƏKLİF EDİLƏN VARİANT

**Maddə 68. ~~Zərərin ödənilməsini tələb etmək hüququ~~ *Özbaşınalıqdan müdafiə və vicdanlı davranış hüququ***

*I. Hər kəsin dövlət orqanlarının ona münasibətdə özbaşınalığı istisna edən vicdanlı davranışına hüququ vardır.*

~~I.~~ *II.* Cinayət, habelə hakimiyyətdən sui-istifadə nəticəsində zərər çəkmiş şəxsin hüquqları qanunla qorunur. Zərər çəkmiş şəxsin ədalət mühakiməsinin həyata keçirilməsində iştirak etmək və ona vurulmuş zərərin ödənilməsini tələb etmək hüququ vardır.

~~II.~~ *III.* Hər kəsin dövlət orqanlarının, yaxud onların vəzifəli şəxslərinin qanuna zidd hərəkətləri və ya hərəkətsizliyi nəticəsində vurulmuş zərərin dövlət tərəfindən ödənilməsi hüququ vardır.

*IV. Dövlət, dövlət qulluqçuları ilə birlikdə, dövlət qulluqçularının qanuna zidd hərəkətləri və hərəkətsizliyi nəticəsində insan hüquq və azadlıqlarına dəymiş ziyana görə və onların təminatının pozulmasına görə mülki məsuliyyət daşıyır.*

## MÖVCUD VARİANT

**Maddə 68. Zərərin ödənilməsini tələb etmək hüququ**

I. Cinayət, habelə hakimiyyətdən sui-istifadə nəticəsində zərər çəkmiş şəxsin hüquqları qanunla qorunur. Zərər çəkmiş şəxsin ədalət mühakiməsinin həyata keçirilməsində iştirak etmək və ona vurulmuş zərərin ödənilməsini tələb etmək hüququ vardır.

II. Hər kəsin dövlət orqanlarının, yaxud onların vəzifəli şəxslərinin qanuna zidd hərəkətləri və ya hərəkətsizliyi nəticəsində vurulmuş zərərin dövlət tərəfindən ödənilməsi hüququ vardır.

---

**16**

## TƏKLİF EDİLƏN VARİANT

**Maddə 71. İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təminatı**

. . .

II. İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsini heç kəs

## MÖVCUD VARİANT

**Maddə 71. İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təminatı**

. . .

II. İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsini heç kəs

| TƏKLİF EDİLƏN VARİANT | MÖVCUD VARİANT |
|---|---|
| məhdudlaşdıra bilməz. Hər kəsin hüquq və azadlıqları bu Konstitusiyada və qanunlarda müəyyən edilmiş əsaslarla, habelə digərlərinin hüquq və azadlıqları ilə məhdudlaşır. *Hüquq və azadlıqların məhdudlaşdırılması dövlət tərəfindən gözlənilən nəticəyə mütənasib olmalıdır.*<br>. . . | məhdudlaşdıra bilməz. Hər kəsin hüquq və azadlıqları bu Konstitusiyada və qanunlarda müəyyən edilmiş əsaslarla, habelə digərlərinin hüquq və azadlıqları ilə məhdudlaşır.<br>. . . |

**17**

| TƏKLİF EDİLƏN VARİANT | MÖVCUD VARİANT |
|---|---|
| **Maddə 85. Azərbaycan Respublikası Milli Məclisinin deputatlığına namizədlərə aid tələblər** | **Maddə 85. Azərbaycan Respublikası Milli Məclisinin deputatlığına namizədlərə aid tələblər** |
| I. Azərbaycan Respublikasının ~~yaşı 25-dən aşağı olmayan~~ *seçkilərdə iştirak etmək hüququna malik olan* hər bir vətəndaşı qanunla müəyyən edilmiş qaydada Azərbaycan Respublikası Milli Məclisinin deputatı seçilə bilər.<br>. . . | I. Azərbaycan Respublikasının yaşı 25-dən aşağı olmayan hər bir vətəndaşı qanunla müəyyən edilmiş qaydada Azərbaycan Respublikası Milli Məclisinin deputatı seçilə bilər.<br>. . . |

**18**

| TƏKLİF EDİLƏN VARİANT | MÖVCUD VARİANT |
|---|---|
| **Maddə 89. Azərbaycan Respublikası Milli Məclisi deputatlığından məhrumetmə və Azərbaycan Respublikası Milli Məclisinin deputatlarının səlahiyyətlərinin itirilməsi** | **Maddə 89. Azərbaycan Respublikası Milli Məclisi deputatlığından məhrumetmə və Azərbaycan Respublikası Milli Məclisinin deputatlarının səlahiyyətlərinin itirilməsi** |
| . . . | I. Azərbaycan Respublikası Milli Məclisinin deputatı aşağıdakı hallarda mandatından məhrum edilir:<br>. . . |
| 5) özü imtina etdikdə~~.~~*;*<br>*6) bu Konstitusiyanın 93-cü maddəsinin III hissəsinin tələbini pozduqda;*<br>*7) deputat üçün qanunla müəyyən edilmiş etik davranış qaydalarını kobud surətdə pozduqda.*<br>. . . | 5) özü imtina etdikdə.<br>. . . |

| **TƏKLİF EDİLƏN VARİANT** | **MÖVCUD VARİANT** |
|---|---|

**19**

| | |
|---|---|
| ***Maddə 98[1]. Azərbaycan Respublikası Milli Məclisinin buraxılması***<br><br>*I. Azərbaycan Respublikası Milli Məclisinin eyni çağırışı bir il ərzində iki dəfə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə etimadsızlıq göstərdikdə və ya Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin, Azərbaycan Respublikası Ali Məhkəməsinin və Azərbaycan Respublikası Mərkəzi Bankı İdarə Heyətinin kollegial fəaliyyəti üçün zəruri olan sayda üzvlüyə namizədləri Azərbaycan Respublikasının Prezidenti tərəfindən iki dəfə təqdim edildikdən sonra, qanunla müəyyən edilmiş müddətdə təyin etmədikdə, habelə bu Konstitusiyanın 94-cü və 95-ci maddələrində, 96-cı maddəsinin II, III, IV və V hissələrində, 97-ci maddəsində göstərilən vəzifələrini aradan qaldırıla bilməyən səbəblər üzündən icra etmədikdə, Azərbaycan Respublikasının Prezidenti Azərbaycan Respublikasının Milli Məclisini buraxır.*<br><br>*II. Növbədənkənar seçkilərdə seçilən Azərbaycan Respublikası Milli Məclisinin çağırışının səlahiyyət müddəti 5 ildən az ola bilər. Bu halda Azərbaycan Respublikasının Milli Məclisinə növbəti seçkilər növbədənkənar seçkilərdə seçilən Azərbaycan Respublikası Milli Məclisinin çağırışının səlahiyyət müddətinin beşinci ilinin noyabr ayının birinci bazar günü keçirilir.* | **Belə maddə olmayıb** |

## TƏKLİF EDİLƏN VARİANT

## MÖVCUD VARİANT

**20**

**Maddə 100. Azərbaycan Respublikasının Prezidentliyinə namizədlərə aid tələblər**

~~Yaşı otuz beşdən aşağı olmayan,~~ Azərbaycan Respublikasının ərazisində 10 ildən artıq daimi yaşayan, seçkilərdə iştirak etmək hüququna malik olan, o cümlədən ağır cinayətə görə məhkum olunmayan, başqa dövlətlər qarşısında öhdəliyi olmayan, ali təhsilli, ikili vətəndaşlığı olmayan Azərbaycan Respublikasının vətəndaşı Azərbaycan Respublikasının Prezidenti seçilə bilər.

**Maddə 100. Azərbaycan Respublikasının Prezidentliyinə namizədlərə aid tələblər**

Yaşı otuz beşdən aşağı olmayan, Azərbaycan Respublikasının ərazisində 10 ildən artıq daimi yaşayan, seçkilərdə iştirak etmək hüququna malik olan, o cümlədən ağır cinayətə görə məhkum olunmayan, başqa dövlətlər qarşısında öhdəliyi olmayan, ali təhsilli, ikili vətəndaşlığı olmayan Azərbaycan Respublikasının vətəndaşı Azərbaycan Respublikasının Prezidenti seçilə bilər.

**21**

**Maddə 101. Azərbaycan Respublikası Prezidenti seçkilərinin əsasları**

I. Azərbaycan Respublikasının Prezidenti ümumi, bərabər və birbaşa seçki hüququ əsasında sərbəst, şəxsi və gizli səsvermə yolu ilə ~~5~~ *7* il müddətinə seçilir. *Azərbaycan Respublikasının Prezidenti növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərini elan edə bilər.*

. . .

**Maddə 101. Azərbaycan Respublikası Prezidenti seçkilərinin əsasları**

I. Azərbaycan Respublikasının Prezidenti ümumi, bərabər və birbaşa seçki hüququ əsasında sərbəst, şəxsi və gizli səsvermə yolu ilə 5 il müddətinə seçilir.

. . .

**22**

***Maddə $103^1$. Azərbaycan Respublikasının vitse-prezidentləri***

*I. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti və vitse-prezidentləri Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilirlər.*

*II. Azərbaycan Respublikasının vitse-prezidenti vəzifəsinə seçkilərdə iştirak etmək hüququna malik olan, ali təhsilli, başqa dövlətlər qarşısında öhdəliyi olmayan Azərbaycan Respublikası vətəndaşı təyin edilir.*

**Belə maddə olmayıb**

## TƏKLİF EDİLƏN VARİANT

**23**

**Maddə 105. Azərbaycan Respublikasının Prezidenti vəzifədən getdikdə onun səlahiyyətlərinin icrası**

I. Azərbaycan Respublikasının Prezidenti vaxtından əvvəl vəzifədən getdikdə ~~üç ay ərzində~~ *60 gün müddətində* növbədənkənar Azərbaycan Respublikasının Prezidenti seçkiləri keçirilir. Bu halda Azərbaycan Respublikasının yeni Prezidenti seçilənədək Azərbaycan Respublikasının Prezidenti səlahiyyətlərini Azərbaycan Respublikasının ~~Baş naziri~~ *Birinci vitse-prezidenti* icra edir.

II. Bu müddət ərzində Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini icra edən Azərbaycan Respublikasının ~~Baş naziri~~ *Birinci vitse-prezidenti* istefa verdikdə, səhhətinə görə öz səlahiyyətlərini icra etmək qabiliyyətini tamamilə itirdikdə Azərbaycan Respublikası Prezidentinin ~~səlahiyyətlərini Azərbaycan Respublikası Milli Məclisinin sədri~~ *müəyyən etdiyi ardıcıllıqla Azərbaycan Respublikasının vitse-prezidenti Birinci vitse-prezident statusu almış olur və Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini* icra edir.

III. Bu maddənin II hissəsində göstərilən səbəblərə görə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini Azərbaycan Respublikası*nın* ~~Milli Məclisi sədrinin~~ *Birinci vitse-prezidentinin* icra etməsi mümkün olmadıqda, ~~Azərbaycan Respublikasının Milli Məclisi~~ Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini~~n başqa vəzifəli şəxs tərəfindən icrası haqqında qərar qəbul edir.~~ *Azərbaycan Respublikasının Baş naziri icra edir.*

*IV. Bu maddənin II hissəsində göstərilən səbəblərə görə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini Azərbaycan Respublikasının Baş nazirinin icra etməsi mümkün olmadıqda, Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini Azər-*

## MÖVCUD VARİANT

**Maddə 105. Azərbaycan Respublikasının Prezidenti vəzifədən getdikdə onun səlahiyyətlərinin icrası**

I. Azərbaycan Respublikasının Prezidenti vaxtından əvvəl vəzifədən getdikdə üç ay ərzində növbədənkənar Azərbaycan Respublikasının Prezidenti seçkiləri keçirilir. Bu halda Azərbaycan Respublikasının yeni Prezidenti seçilənədək Azərbaycan Respublikasının Prezidenti səlahiyyətlərini Azərbaycan Respublikasının Baş naziri icra edir.

II. Bu müddət ərzində Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini icra edən Azərbaycan Respublikasının Baş naziri istefa verdikdə, səhhətinə görə öz səlahiyyətlərini icra etmək qabiliyyətini tamamilə itirdikdə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini Azərbaycan Respublikası Milli Məclisinin sədri icra edir.

III. Bu maddənin II hissəsində göstərilən səbəblərə görə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini Azərbaycan Respublikası Milli Məclisi sədrinin icra etməsi mümkün olmadıqda Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərinin başqa vəzifəli şəxs tərəfindən icrası haqqında qərar qəbul edir.

| TƏKLİF EDİLƏN VARİANT | MÖVCUD VARİANT |
|---|---|
| *baycan Respublikası Milli Məclisinin sədri icra edir. Həmin səbəblərə görə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini Azərbaycan Respublikası Milli Məclisinin sədrinin icra etməsi mümkün olmadıqda, Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərinin başqa vəzifəli şəxs tərəfindən icrası haqqında qərar qəbul edir.* | |

**24**

| TƏKLİF EDİLƏN VARİANT | MÖVCUD VARİANT |
|---|---|
| ***Maddə 106[1]. Azərbaycan Respublikası vitse-prezidentlərinin toxunulmazlığı*** | **Belə maddə olmayıb** |
| *I. Səlahiyyət müddəti ərzində Azərbaycan Respublikasının vitse-prezidentinin şəxsiyyəti toxunulmazdır.* | |
| *II. Azərbaycan Respublikasının vitse-prezidenti cinayət başında yaxalanma hallarından başqa tutula bilməz, cinayət məsuliyyətinə cəlb edilə bilməz, onun barəsində məhkəmə qaydasında inzibati tənbeh tədbirləri tətbiq edilə bilməz, axtarışa məruz qala bilməz, şəxsi müayinə edilə bilməz.* | |
| *III. Azərbaycan Respublikasının vitse-prezidenti cinayət başında yaxalanarsa, tutula bilər. Belə olduqda onu tutan orqan bu barədə dərhal Azərbaycan Respublikasının Baş prokuroruna xəbər verməlidir.* | |
| *IV. Azərbaycan Respublikasının vitse-prezidentinin toxunulmazlığına yalnız Azərbaycan Respublikası Baş prokurorunun təqdimatına əsasən Azərbaycan Respublikasının Prezidenti tərəfindən xitam verilə bilər.* | |

## 25

**TƏKLİF EDİLƏN VARİANT:**

***Maddə 108[1]. Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin təminatı***

*Azərbaycan Respublikasının Birinci vitse-prezidenti və onun ailəsi dövlət hesabına təmin edilir. Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin və onun ailəsinin təhlükəsizliyini xüsusi mühafizə xidmətləri təmin edir.*

**MÖVCUD VARİANT:**

**Belə maddə olmayıb**

## 26

**TƏKLİF EDİLƏN VARİANT:**

***Maddə 110[1]. Dövlətlərarası və hökumətlərarası beynəlxalq müqavilələr bağlamaq hüququnun verilməsi***

*Azərbaycan Respublikasının Prezidenti dövlətlərarası və hökumətlərarası beynəlxalq müqavilələr bağlamaq hüququnu vitse-prezidentə, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin üzvlərinə və Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi digər şəxslərə verə bilər.*

**MÖVCUD VARİANT:**

**Belə maddə olmayıb**

## 27

**TƏKLİF EDİLƏN VARİANT:**

**Maddə 121. Azərbaycan Respublikası Nazirlər Kabinetinin üzvlüyünə namizədlərə dair tələblər**

*Azərbaycan Respublikasının Baş naziri, Baş nazirin müavini, nazir, digər mərkəzi icra hakimiyyəti orqanı rəhbəri vəzifəsinə seçkilərdə iştirak etmək hüququna malik olan, ali təhsilli, başqa dövlətlər qarşısında öhdəliyi olmayan Azərbaycan Respublikası vətəndaşı təyin edilir.*

**MÖVCUD VARİANT:**

**Maddə 121. Azərbaycan Respublikası Nazirlər Kabinetinin üzvlüyünə namizədlərə dair tələblər**

I. Azərbaycan Respublikasının Baş naziri vəzifəsinə yaşı 30-dan aşağı olmayan, seçkilərdə iştirak etmək hüququna malik, ali təhsilli, başqa dövlət qarşısında öhdəliyi olmayan Azərbaycan Respublikası vətəndaşı təyin edilir.

II. Azərbaycan Respublikası Baş nazirinin müavini, nazir, digər mərkəzi icra hakimiyyəti orqanının rəhbəri vəzifəsinə yaşı 25-dən aşağı olmayan, seçkilərdə iştirak etmək hüququna malik, ali təhsilli, başqa dövlət qarşısında öhdəliyi olmayan Azərbaycan Respublikası vətəndaşı təyin edilir.

| TƏKLİF EDİLƏN VARİANT | MÖVCUD VARİANT |
| --- | --- |
| **28** | |
| **Maddə 126. Hakimliyə namizədlərə aid tələblər**<br><br>I. ~~Yaşı 30-dan aşağı olmayan, seçkilərdə~~ *Seçkilərdə* iştirak etmək hüququna malik olan, ali hüquq təhsilli və hüquqşünas ixtisası üzrə 5 ildən artıq işləyən Azərbaycan Respublikası vətəndaşları hakim ola bilərlər.<br><br>. . . | **Maddə 126. Hakimliyə namizədlərə aid tələblər**<br><br>I. Yaşı 30-dan aşağı olmayan, seçkilərdə iştirak etmək hüququna malik olan, ali hüquq təhsilli və hüquqşünas ixtisası üzrə 5 ildən artıq işləyən Azərbaycan Respublikası vətəndaşları hakim ola bilərlər.<br><br>. . . |
| **29** | |
| ***Maddə $146^1$. Bələdiyyələrin məsuliyyəti***<br><br>*Bələdiyyələr, bələdiyyə qulluqçuları ilə birlikdə, bələdiyyə qulluqçularının qanuna zidd hərəkətləri və hərəkətsizliyi nəticəsində insan hüquq və azadlıqlarına dəymiş ziyana görə və onların təminatının pozulmasına görə mülki məsuliyyət daşıyırlar.* | **Belə maddə olmayıb** |

*Hörmətli SEÇİCİ,*

*Azərbaycan Respublikasının Konstitusiyasının referenduma (ümumxalq səsverməsinə) çıxarılan hissələrini müqayisəli şəkildə* Sizə təqdim edirik.*

*İnanırıq ki, referendumda fəal iştirak edəcəksiniz və bu material Sizin rahat və düzgün seçiminiz üçün faydalı olacaq.*

***Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası***

**Təklif edilən dəyişikliklər göy rəngdə verilmişdir.*